1_Layout 1 13.08.2014 17:06 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 15 (433)

15 avqust 2014-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# BÜTÜN İŞĞAL EDİLMİŞ TORPAQLARDA, O CÜMLƏDƏN ŞUŞADA, XANKƏNDİDƏ AZƏRBAYCAN BAYRAĞI QALDIRILACAQDIR!!!

*İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti*

## "Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, onların hamısı Ali Baş Komandanın əmrini gözləyir"

**Avqustun 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ağdam və Bərdə rayonlarına səfər edib. Səfər çərçivəsində prezident İlham Əliyev əvvəlcə Ağdamdakı "N" saylı hərbi hissəyə gəlib.**

Müdafiə naziri, general-polkovnik Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Məlumat verildi ki, təmas xəttində yerləşən bu hərbi hissədə əsgərlərin və zabitlərin xidməti üçün hərtərəfli şərait yaradılıb.

Ali Baş Komandan İlham Əliyev komanda müşahidə məntəqəsindən düşmənin mövqelərini izlədi.

Sonra Prezident döyüş tapşırığını yerinə yetirərkən xüsusilə fərqlənmiş bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim etdi.

**Dövlət başçısı hərbçilərlə görüşdü və döyüşdə fərqlənmiş hərbi qulluqçular qarşısında çıxış etdi.**

### Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı:

- Bu gün təmas xəttində vəziyyətlə tanış oluram. Müdafiə Nazirliyi müntəzəm olaraq operativ məlumat verir. Vəziyyət tam nəzarət altındadır. Bizim mövqelərimiz möhkəmdir, güclüdür və təmas xəttində Azərbaycan ordusu tam üstünlüyü əldə edib.

Azərbaycan ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə layəqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir. Biz bundan sonra da öz döyüş potensialımızı artıracağıq. Hazırda Azərbaycan ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Son vaxtlar əldə etdiyimiz silah, texnika dəmeyə əsas verir ki, biz istənilən vəzifəni icra edə bilərik.

Son vaxtlar həm Azərbaycanda müasir silah və texnika istehsal olunur, eyni zamanda, xarici mənbələrdən aldığımız avadanlıq, texnika, silah-sursat ən müasir standartlara cavab verir. Hava hücumuna qarşı ən müasir qurğular əldə edilibdir. Ordumuzda ən güclü artilleriya qurğuları vardır. Böyük dəqiqliyə və çox böyük dağıdıcı qüvvəyə malik olan raket sistemləri, döyüş və nəqliyyat helikopterləri, döyüş təyyarələri, zirehli texnika, tanklar – bütün bunlar bu gün Azərbaycan ordusunun potensialını təşkil edən amillərdir. Bu gün Azərbaycan ordusu Dağlıq Qarabağdakı istənilən obyekti məhv edə bilər. Bunu biz də bilirik, Azərbaycan xalqı da, düşmən də bilməlidir. Bu gün ancaq Azərbaycan dövlətinin siyasəti sayəsində bölgədə sabitlik hələ ki, təmin edilir. Azərbaycan sabitləşdirici ölkədir. Biz bu gün öz imkanlarımızı artıraraq daha da güclü orduya malik oluruq və bu ordu istənilən vaxtda, istənilən vəzifəni icra edə bilər.

Bu gün təmas xəttində olarkən son günlər ərzində baş vermiş hadisələri də yada salırıq. Düşmən, erməni işğalçı qüvvələri bir həftə bundan əvvəl qorxaqcasına, namərdcəsinə gecə vaxtı bizim mövqelərimizə hücum etmişlər. Biz itki vermişik, əsgərlərimiz şəhid olmuşlar. Allah bütün şəhidlərə rəhmət eləsin, onların ailələrinə, yaxınlarına səbr versin. Ancaq, eyni zamanda, düşmən layiqli cavab aldı. Həmişə olduğu kimi, erməni tərəfi öz itkilərini gizlədir. Ancaq biz bilirik ki, onlarla işğalçı məhv edilmişdir və bu əməliyyatlarda xüsusi rəşadət, cəsarət, peşəkarlıq göstərən əsgər, gizir və zabitlər bu gün bu masa arxasında əyləşmişlər. Mən onları təltif etmişəm. Göstərdiyiniz cəsarətə görə, peşəkarlığa görə sizə Azərbaycan xalqı adından öz minnətdarlığımı bildirmək istəyirəm və əminəm ki, bundan sonra da bütün döyüş tapşırıqlarını ləyaqətlə icra edəcəksiniz.







Bu gün düşmən panikadadır, isterikadadır. Biz bunu bilirik. Bizim kifayət qədər imkanlarımız var ki, qarşı tərəf - də nələr baş verdiyini biləк. Biz tam şəkildə hərbi və mənəvi üstünlüyü əldə etmişik. Biz öz torpağımızdayıq. Bir həftə bundan əvvəl həlak olmuş şəhidlərimiz öz torpağında şəhid olmuşlar. Sual olunur: erməni əsgərinin – işğalçı qüvvələrin əsgərinin Ağdam ərazisində nə işi var? Bu gün Ermənistanın faşist rəhbərliyi, hərbi xunta öz ölkəsini uçuruma aparır. Onlar bizim torpaqlarımızı işğal ediblər, eyni zamanda, bütün Ermənistanı işğal ediblər. Erməni xalqı kriminal, korrupsioner rəhbərlikdən öz canını qurtarmalıdır. Əks təqdirdə Ermənistanı böyük fəlakətlər gözləyir. Əgər Ermənistan faşist dövləti öz çirkin əməllərindən əl çəkməsə, erməni dövlətinin mövcudluğu sual altına düşə bilər.

Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaranıbdır. İrəvan xanlığı, Zəngəzur, Göyçə mahalı bizim tarixi torpağımızdır. Biz azərbaycanlılar o torpaqlara qayıtmalıyıq və qayıdacağıq. Biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Həmişə belə olub, bu gün də belədir, sabah da belə olacaq. Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində baş vermiş hadisələr nəticəsində müvəqqəti olaraq torpaqlarımız işğal altına düşmüşdür. Ancaq biz öz suverenliyimizi bərpa edəcəyik. Bütün işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada, Xankəndidə Azərbaycan bayrağı qaldırılacaqdır. Bu, bizim məqsədimizdir. Bu məqsədə doğru gedirik və biz bu məqsədə çatmaq üçün daha da güclü ordu yaratmalıyıq.

Bu gün ölkəmizin iqtisadi, siyasi potensialı Ermənistandan qat-qat artıqdır, üstündür. Son illər ordu quruculuğu sahəsində görülən işlər nəticəsində biz hərbi üstünlüyü də əldə etmişik və öz potensialımızı getdikcə daha da artıracağıq. Münaqişənin həlli yalnız ölkəmizin ərazi bütövlüyü çərçi - vəsində mümkündür. Dağlıq Qarabağ Azərbaycan ərazisidir. Tarixi, əzəli Azərbaycan torpağıdır. Beynəlxalq hüquq normaları bizim mövqeyimizi dəs - təkləyir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi tanıyır. Biz heç vaxt Azərbaycan torpağında ikinci qondarma "erməni dövləti"nin yaradılmasına imkan verməyəcəyik, öz ərazi bütövlüyümüzü bərpa edəcəyik: ya sülh yolu ilə, ya hərbi yolla. Biz hər iki varianta hazırıq. Son həftə ərzində və ondan əvvəlki dövrdə təmas xəttində müşahidə olunan mənzərə onu deməyə əsas verir ki, biz istənilən varianta hazırıq. Necə ki, siyasi və iqtisadi meydanda ermənilərə qalib gəlmişik, döyüş meydanında da onlara qalib gəlməyə qadirik. Biz güclü hərbi potensiala malikik. Artıq bu, müxtəlif vaxtlarda nümayiş etdirilib. Hərbi təlimlərdə və paradlarda bizim texnikamız nüma - yiş etdirilir. Amma bizim ən böyük gücümüz əsgərlərimizin cəsarəti, vətən - pərvərliyidir. Bu gün Azərbaycanda elə gözəl gənc nəsil yetişib ki, onların hamısı Ali Baş Komandanın əmrini gözləyir. Son hadisələr də bunu göstərir. Hətta hərb işindən kənarda olan insanlar da öz fikirlərini, istəklərini bildirirlər, könüllü olaraq cəbhə bölgəsinə getmək istəyirlər. Bu, məni çox sevindirir və onu göstərir ki, Azərbaycanda vətənpərvərlik ruhu yüksəkdir. Mənəvi üstünlük bizim tərəfimizdədir.

Ermənistandan isə son hadisələrdən sonra əhali kütləvi köçə başlamışdır. Onsuz da son illər ərzində Ermənistanı orta hesabla ildə 70-80 min vətəndaş həmişəlik tərk edirdi. Ancaq son günlər ərzində bu köç daha da güclü olmuşdur. Yəni onlar bizdən qorxurlar, panikadadırlar. Özləri etiraf edirlər ki, xarici yardım olmadan Ermənistanın müstəqilliyini saxlaya bilməzlər. Açıq şəkildə etiraf edirlər ki, xarici qüvvələrə güvənirlər. Biz isə öz xalqımıza, öz gücümüzə güvənirik. Biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik və etməliyik. Azərbaycan xalqı öz ordusunu sevir, ona inanır, güvənir. Siz ordumuzun inkişafında böyük xidmətlər göstərmisiniz. Bizim, əlbəttə, bütün hərbi hissələrimizdə xidmət edən əsgər, gizir və zabitlər çox böyük qiymətə layiqdirlər. Ancaq sizin əməliyyatlarınızın, xüsusi təyinatlı bölmələrdə xidmət edən əsgər və zabitlərimizin xüsusi xidməti vardır. Siz hər an öz həyatınızı risk altına salırsınız, böyük qəhrəmanlıq göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və istəyirəm Azərbay - can xalqı da bilsin ki, bizim necə gözəl döyüşçülərimiz, qəhrəmanlarımız var.

Sizin gələcək fəaliyyətiniz uğurlu olacaqdır. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda yaşayırıq. Bura Azərbaycan torpağıdır. Buradan bir neçə kilometr məsafədə yerləşən Ağdam şəhəri də Azərbaycan torpağıdır, Xankəndi də, Şuşa da, bütün digər işğal edilmiş torpaqlar da. Ağdam şəhərini erməni quldurları, vəhşiləri yerlə-yeksan ediblər. Buradan Ağdam şəhərinin qalıqları açıq-aydın görünür. İki binadan başqa bütün binalar dağıdılıb. Biz Ağdam şəhərini bərpa edəcəyik. İşğal edilmiş, dağılmış bütün şəhərləri bərpa edəcəyik. Biz o torpaqlara qayıdacağıq, biz bu fikirlə yaşayırıq və yaşayacağıq. Münaqişə öz həllini tapmayana qədər daim öz prinsipial mövqeyimizi nümayiş etdirəcəyik və təmas xəttində üstünlük daim bizdə olacaqdır.

Göstərdiyiniz qəhrəmanlığa görə sizi bir daha təbrik edirəm, sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

Mən hərbi hissələrdə tez-tez oluram. Təmas xəttində də, bu bölgədə də, digər mövqelərdə də olmuşam. Bir daha demək istəyirəm ki, mənə operativ məlumat verilir. Ancaq bu gün gəlmişəm ki, sizinlə birlikdə bu səngərlərdə olum, sizə öz sözümü deyim və Azərbaycan xalqını buradan əmin edim ki, Azərbaycan Ordusu Azərbaycan dövlətini qoruyur və öz məqsədinə çatacaq. Biz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Sizi şərəfli xidmətinizdə bir daha salamlayıram və sizə bu şərəfli işdə yeni uğurlar arzulayıram.

Sonra Prezident xidmətdə fərqlənən bir qrup hərbçiyə xatirə hədiyyələri təqdim etdi.

Əsgər və zabitlər Ali Baş Komandan ilə xatirə şəkli çəkdirdilər.

Sonra Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev operativ müşavirə keçirdi.

Dövlət başçısına cəbhə xəttində ümumi vəziyyətlə bağlı məruzə edildi.

Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev müvafiq tapşırıqlarını verdi.

2_Layout 1 13.08.2014 17:25 Page 1



## MİNNƏTDARLIQ

**Hörmətli general-mayor Şahin Məmmədov!**

Sizə oğlum Həsənov Pərviz Yasər oğlunun müalicəsi ilə əlaqədar köməklik göstərilməsi barədə müraciət etmişdim.

Məlumat üçün bildirirəm ki, övladım əsgər P.Həsənov 16.06.2014-cü il tarixdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Hərbi qospitalına stasionar müalicəyə qəbul olunmuş və müvafiq müalicə kursu keçmişdir. Hal-hazırda onun səhhəti qənaətbəxşdir. Oğlumun müalicəsinə köməklik göstərdiyinizə görə, Sizə və qospitalın tibbi personalına dərin minnətdarlığımı bildirir, çox sağ olun deyirəm.

**Hörmətlə, Həsənov Yasər Əbil oğlu**
**17.07.2014-cü il**

## İLDÖNÜMÜ TƏNTƏNƏ İLƏ QEYD EDİLMİŞDİR

***Bu münasibətlə Daxili Qoşunların Komandanı şəxsi heyəti təbrik etmişdir***

Avqustun 1-də 17077 saylı hərbi hissənin yaranmasının 5-ci ildönümü qeyd edilmişdir. Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmiş, Dövlət Himni ifa olunmuşdur.

Sonra polkovnik-leytenant M.Fərəcov çıxış edərək komandiri olduğu hərbi hissənin yaranması və ötən müddət ərzində həyata keçirilmiş təqdirəlayiq tədbirlər barədə geniş məlumat vermişdir. Qeyd etmişdir ki, bu günədək keçirilmiş müvafiq təlimlərdə hərbi hissənin şəxsi heyəti qarşıya qoyulmuş tapşırıqları müvəffəqiyyətlə yerinə yetirmişdir.

Daxili Qoşunların Baş İdarəsindən mərasimdə iştirak edən polkovnik Nəsir Hüseynov hərbi hissənin yaranmasının 5-ci ildönümü münasibətilə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədovun şəxsi heyətə təbrikini çatdırmış, onlara xidməti-döyüş fəaliyyətlərində uğurlar arzulamışdır.

Sonda Daxili Qoşunların Komandanının və hərbi hissə komandirinin əmrinə əsasən xidmətdə fərqlənmiş bir qrup hərbi qulluqçuya mükafatlar təqdim edilmişdir.

**Mətbuat xidməti**

## RABİTƏ VASİTƏLƏRİNƏ İLLİK TEXNİKİ BAXIŞIN NƏTİCƏLƏRİ MƏLUM OLUB

Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən iyun ayının 18-dən iyul ayının 17-dək Daxili Qoşunların Ali Hərbi Məktəbində, Dayaq Rabitə Qovşağında, eləcə də hərbi hissələrdə rabitə vasitələrinə illik texniki baxış keçirilmişdir. Baxışın nəticələrinə əsasən, Daxili Qoşunların Dayaq Rabitə Qovşağı, 12565 və 99713 saylı hərbi hissələri yüksək nəticələr əldə edərək ilk üçlükdə qərarlaşmışlar. Rabitə vasitələrinin qorunub saxlanılmasında və istismarında yüksək nəticələr əldə etmiş yuxarıda göstərilən hərbi hissələrin vəzifəli şəxsləri Daxili Qoşunların Komandanının müvafiq əmri ilə mükafatlandırılmışlar.

Bundan əlavə, 17074, 17072 və 16073 saylı hərbi hissələrin Rabitə və AİS xidmətlərinin rəisləri vəzifə borclarına məsuliyyətlə yanaşdıqlarına görə hərbi hissə komandirləri tərəfindən müxtəlif fərmanlara layiq görülmüşlər.

Bütün hərbi hissələrə bundan sonra keçiriləcək texniki baxışlarda yalnız yüksək pillələrdə yer almaq və nailiyyətlər qazanmaq üçün əzmlə çalışmağı arzulayırıq.

**gizir X.Tağıyeva**

## "HƏRBİ HİSSƏNİN DÖYÜŞ HAZIRLIĞI YÜKSƏK SƏVİYYƏDƏDİR"



***Daxili Qoşunların Komandanı Bərdədə yerləşən "N" saylı hərbi hissənin xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinin vəziyyətinin yoxlayərkən bu fikri səsləndirmişdir.***

Avqustun 4-dən 6-dək Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-mayor Şahin Məmmədov Bərdə rayonunda yerləşən "N" saylı hərbi hissədə olmuşdur.

Qarşıya qoyulmuş xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsinin vəziyyətinin yoxlanılması məqsədi daşıyan səfər çərçivəsində Daxili Qoşunların Komandanı ilk növbədə hərbi hissənin döyüş hazırlığını, təlim-tədrisin vəziyyətini yoxlamış, şəxsi heyətin kazarma-məişət şəraiti və təminat-təhcizatı ilə maraqlanmışdır.

Hərbi hissə komandiri məruzə edərək bildirmişdir ki, şəxsi heyət yüksək döyüş qabiliyyətinə malikdir və mənəvi-psixoloji vəziyyət tələb olunan səviyyədədir.

Sonra Daxili Qoşunların Komandanı hərbi hissənin idarə heyətilə xidməti müşavirə keçirmişdir. Ölkəmizin iqtisadi qüdrətinin artmasının Silahlı Qüvvələrimizin möhkəmlənməsinə geniş imkanlar açdığını deyən Daxili Qoşunların Komandanı xüsusi olaraq vurğulamışdır ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə bu istiqamətdə həyata keçirilən məqsədyönlü islahatlar öz bəhrəsini verməkdədir. Bildirilmişdir ki, elə bunun nəticəsidir ki, ən müasir silah və texnikalarla təchiz olunmuş Azərbaycan ordusu Cənubi Qafqazda liderliyi qoruyub saxlamaqdadır.

Ötən dövr ərzində hərbi hissədə xidməti-döyüş fəaliyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilmiş tədbirlərdən razılığının ifadə edən general-mayor Ş.Məmmədov şəxsi heyətin hazırlığını yüksək qiymətləndirərək, zabit və gizirlərin peşə vərdişlərinin artırılması istiqamətində səylərin daha da artırılmasının, hər an istənilən tapşırığın yerinə yetirilməyə hazır olmalarının vacibliyini qeyd etmişdir.

Müşavirənin sonunda cənab komandan konkret tapşırıqlar vermişdir.

**Mətbuat Xidməti**

## YENİYETMƏLƏR YAY DÜŞƏRGƏSİNƏ YOLA SALINDILAR

***Artıq 9-cu dəfədir ki, DİN-in Daxili Qoşunlarının, Səbail rayon İcra Hakimiyyətinin təşəbbüsü və Azərbaycan Beynəlxalq Təhsil Kompleksinin birgə layihəsi əsasında rayonun Qarabağ müharibəsi əlilləri və veteranlarının, aztəminatlı və imkansız ailələrin uşaqlarının, təhsildə və idmanda fərqlənən şagirdlərin Quba şəhərində yerləşən «Şahinlər» yay düşərgəsində istirahətləri təşkil edilir.***

Azərbaycan Beynəlxalq Təhsil Kompleksinin Quba filialının bazasında ümumilikdə 250 nəfərdən çox yeniyetmə üçün yaradılmış «Şahinlər» yay istirahət düşərgəsi hərbi-vətənpərvərlik təmayüllü olması ilə fərqlənir.

Avqustun 5-də Bakı şəhərinin «Sahil bağı»nda şagirdlərin istirahət düşərgəsinə yola salınma mərasimi keçirilmişdir. Tədbir Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi orkestri tərəfindən Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başlanmışdır. Sonra gənc «Şahinlər» Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidə önünə əklil qoymuşlar.

Mərasimdə Səbail rayon rəhbərliyi, Daxili Qoşunların və rayon ictimaiyyətinin nümayəndələri, eləcə də yola salınacaq yeniyetmələrin valideynləri iştirak etmişlər. Çıxış edən Səbail rayon İcra Hakimiyyətinin Başçısı Asif Əsgərov ölkə rəhbəri cənab İlham Əliyevin yeniyetmə və gənclərimizin sağlam böyüməsi, gənc nəslin vətənə məhəbbət, Azərbaycan dövlətçiliyinə sədaqət ruhunda tərbiyə olunması istiqamətində gördüyü işlərdən, yeniyetmələrə olan diqqət və qayğıdan, bu istiqamətdə Səbail rayonunda görülən işlər və həyata keçirilən layihələrdən danışmış, uşaqlara şən və yaddaqalan istirahət arzulamışdır.




***Düşərgə Daxili Qoşunların «N» saylı hərbi hissəsi tərəfindən hərbi-səhra çadırları və səhra yeməkxanası ilə təmin edilmişdir***

Qeyd olunmuşdur ki, düşərgənin fəaliyyəti Səbail RİH və layihədə iştirak edən təşkilatçıların diqqət mərkəzində olacaq, burada istirahət üçün hər cür şərait yaradılacaqdır. Bildirilmişdir ki, yeniyetmələrin hərbi-vətənpərvərlik tərbiyəsinin möhkəmləndirilməsi istiqamətində növbəti belə tədbir avqust ayının 18-dən Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə birgə Qusar rayonunda da təşkil olunacaqdır.

Daxili Qoşunların Nümunəvi-göstərici Hərbi orkestrinin marş sədaları altında yeniyetmələr istirahət düşərgəsinə yola düşmüşlər. Məlumat üçün bildirək ki, hərbi-vətənpərvərlik təmayüllü düşərgədə bir sıra təşkilati işlər həyata keçirilmişdir. Bir gün əvvəl isə istirahətə göndəriləcən uşaqlar və onların valideynləri ilə düşərgədə çalışacaq dəstə rəhbərlərinin görüşü keçirilmişdir. Valideynlərə düşərgədə istirahətin təşkili, daxili qaydalar, keçiriləcək tədbirlər barədə ətraflı məlumat verilmişdir. Həmçinin, uşaqlar üçün xüsusi geyim və formalar, lazımi idman ləvazimatları alınmış, Daxili Qoşunların Quba şəhərindəki «N» saylı hərbi hissəsi tərəfindən düşərgənin həyətində hərbi-səhra çadırları, səhra yeməkxanası qurulmuşdur. Bu il də düşərgədə uşaqların təlim-tərbiyə işləri ilə rayonun orta məktəblərində çalışan idman və ibtidai-hərbi hazırlıq müəllimləri məşğul olacaqlar.

Bundan əlavə, düşərgəyə cəlb olunmuş Daxili Qoşunların hərbi qulluqçularından ibarət qrup hərbi hazırlıq, təlim-tərbiyə işlərində müəllim-tərbiyəçilərə yaxından köməklik göstərəcəklər.

**Mətbuat Xidməti**

## İDMAN

### 67987 SAYLI HƏRBİ HİSSƏ BİRİNCİ OLDU

Avqust ayının 9 və 10-da Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətində Daxili Qoşunların birinciliyi uğrunda silahsız özünümüdafiə üzrə yarış keçirilmişdir.

Yarışda 12 komanda olmaqla, 81 nəfər hərbi qulluqçu iştirak etmişdir. Şəxsi və komanda birinciliyi uğrunda keçirilən yarışın nəticələri aşağıdakı kimi olmuşdur:

**65 kq çəki dərəcəsində**

**I yer** – kiçik çavuş Qəhrəmanov Kamran Əliverdi oğlu (16073 saylı hərbi hissə)
**II yer** - kiçik çavuş Əliyev Kamil Nurbala oğlu (67987 saylı hərbi hissə)
**III yer** - leytenant Göyüşov Şahin Aydın oğlu (99713 saylı hərbi hissə)

**70 kq çəki dərəcəsində**

**I yer** - gizir Allahyarov Natiq Ənvər oğlu (67987 saylı hərbi hissə)
**II yer** - baş əsgər Qocayev Kamran Şamil oğlu (17072 saylı hərbi hissə)
**III yer** - əsgər Abdullayev Azad Çingiz oğlu (16073 saylı hərbi hissə)

**75 kq çəki dərəcəsində**

**I yer** - leytenant Əliyev Pərvin Əli oğlu (16073 saylı hərbi hissə)
**II yer** - baş leytenant Rəcəbov Qasım Ələsgər oğlu (67987 saylı hərbi hissə)
**III yer** - baş çavuş Orucov Ramin Yunis oğlu (99713 saylı hərbi hissə)

**80 kq çəki dərəcəsində**

**I yer** - kiçik çavuş Zuliyev Elnur İlqar oğlu (67987 saylı hərbi hissə)
**II yer** - çavuş Mahmudov Nihad Şahin oğlu (16073 saylı hərbi hissə)
**III yer** - leytenant Məmmədov Alim Nazim oğlu (99713 saylı hərbi hissə)

**85 kq çəki dərəcəsində**

**I yer** - leytenant Quliyev Malik Əlipənah oğlu (67987 saylı hərbi hissə)
**II yer** - kiçik çavuş Qasımov Araz Ayaz oğlu (16073 saylı hərbi hissə)
**III yer** - gizir Əhədov Vüsal Rafiq oğlu (17072 saylı hərbi hissə)

**90 kq çəki dərəcəsində**

**I yer** - baş çavuş Nuriyev Asif Nizami oğlu (25033 saylı hərbi hissə)
**II yer** - leytenant Seyidov Orxan Sədrəddin oğlu (25031 saylı hərbi hissə)
**III yer** - gizir Həsənzadə Zəmanət Vilayət oğlu (16075 saylı hərbi hissə)

**+95 kq çəkidən yuxarı dərəcədə**

**I yer** - gizir Abbasov Elnur Firdovsi oğlu (17074 saylı hərbi hissə)
**II yer** - çavuş Əliyev Bayram Mehman oğlu (25031 saylı hərbi hissə)
**III yer** - baş çavuş Məhərrəmov Orxan Şakiroviç (16073 saylı hərbi hissə)

Komanda üzrə nəticələrə gəldikdə isə cədvələ 30 xalla 67987 saylı hərbi hissə başçılıq edib. 22 xalla 16073 saylı hərbi hissə 2-ci, 7 xalla 17074 saylı hərbi hissə 3-cü yerdə qərarlaşıb.

**Qalib gəlmiş hərbi qulluqçular medal və fərmanlarla mükafatlandırılmışlar.**

Gənc əsgər:

## "VƏTƏN ÜÇÜN DOĞULMUŞUQ"



Gənc əsgər Xasaylı İlkin Aydın oğlu 1994-cü il avqustun 8-də Yevlaxın Hacımahmudlu kəndində şəhid övladı kimi dünyaya göz açıb. Bəli, İlkin hələ ana bətnində olarkən atası Şükürov Aydın Xasay oğlu 1994-cü ilin aprel ayının 28-də Ağdam rayonu uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Nə qədər ağır olsa da onu qeyd etməliyik ki, İlkinin doğma əmiləri Həsən və Elşad da respublikamızın ərazi bütövlüyü uğrunda gedən döyüşlər zamanı gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəliblər. Məhz buna görə də İlkinə üç oğul şəhid verən Xasay babasının adını soyad olaraq yazıblar...

Əsgər İ.Xasaylı 9-cu sinfədək Hacımahmudlu kənd orta məktəbində oxuduqdan sonra Ağdam Dövlət Sosial İqtisad Kollecində təhsilini davam etdirib. 2014-cü ildə bu təhsil ocağını "Yol hərəkətinin təşkili" ixtisası üzrə bitirib. 2014-cü ilin iyul ayının 14-dən isə qoşunların 67987 saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmətə başlayıb. İlk gündən komandirlərin və bölüyün şəxsi heyətinin dərin hörmətini qazanıb. İlkin keçirilən bütün məşğələlərdə fəal iştirak edərək hərbi biliklərini artırmağa səy göstərir:

"Daxili Qoşunlarda hərtərəfli şəraitdən və biz gənc əsgərlərə göstərilən diqqət və qayğıdan razıyıq. İçəçəyimiz Hərbi Anda sadiq qalaraq, Vətənimizə layiqincə xidmət edəcəyik. Bunun üçün ilk növbədə hərbi biliklərə mükəmməl yiyələnməyimiz vacibdir. Biz Vətən üçün doğulmuşuq və onun uğrunda vuruşmağa hazır olmalıyıq".

Bütün əsgərlərimizə uzun ömür-can sağlığı, xidməti fəaliyyətində uğurlar arzulayırıq.

İnanırıq ki, sıralarımıza yeni daxil olmuş gənc əsgərlərimiz öz yüksək nizam-intizamları, nümunəvi xidmətləri ilə Azərbaycan əsgəri adını daima zirvələrə qaldıracaqlar.

**baş leytenant A.Əhmədov,**
**67987 saylı hərbi hissənin zabiti**

3_Layout 1 13.08.2014 18:06 Page 1



# GƏNC ZABİTƏ MƏSLƏHƏTLƏR

*Rotmistr V.M.Kulçitskinin "Gənc zabitə məsləhətlər" əsəri təkcə Rusiyada iki il ərzində, yəni 1915-ci ildən 1917-ci ilə qədər altı dəfə nəşr edilmişdir. Yeddinci dəfə nəşr olunmasına 1917-ci il oktyabr hadisələri mane olmuşdur.*

*Əsərin müəllifi Rotmistr V.M.Kulçitski yazırdı ki, "Gənc zabitə məsləhətlər" həm ön mövqelərdə dayananlar üçün, həm də şübhəli peşə və davranışlara malik hərbçilərlə tez-tez rastlaşdığımız arxa cəbhədə də eyni dərəcədə faydalıdır.*

*Əsərdə məqsəd gənc zabit və əsgərləri yalandan, insanı məhvə sürükləyən addımdan çəkindirmək arzusudur. Burada çoxlarının unutduğu və bu gün gənc zabitlərə məlum olmayan qədim və əbədi həqiqətlər toplanmışdır. Bütün deyilənlər bu gün üçün də aktualdır.*

*Materiala olan böyük marağı və onun vacibliyini nəzərə alaraq, "Gənc zabitə məsləhətlər"i yenidən qəzetimizdə dərc etməyi qərara aldıq.*

*Nəzərə alsaq ki, Daxili Qoşunların Ali Hərbi Məktəbini bu il bitirən müdavimlər gənc zabit kimi hərbi hissələrdə xidmətə başlayacaq, bu baxımdan mövzu daha böyük əhəmiyyət kəsb edir.*

## NİZAM-İNTİZAM HƏR ŞEYDƏN İRƏLİDİR - HƏRBİ XİDMƏTİN ƏSASI VƏ MAHİYYƏTİ

**1.** Əsgərin ilk və əsas borcu dövlətə və Vətənə sədaqətdir. Bu keyfiyyət yoxdursa, o, hərbi xidmətə yararsızdır. Vətənin bütövlüyü və nüfuzunun qorunması ordu və donanmanın gücünə əsaslanır, onların keyfiyyəti və çatışmazlıqları bütün ölkədə özünü göstərir, buna görə də sosial məsələlərə və siyasətə qarışmaq sənin işin deyil, sənin işin öz borcunu dönmədən yerinə yetirməkdir.

**2.** Ordunun şərəfini hər şeydən üstün tut.

**3.** Cəsur ol. Lakin cəsurluq həqiqi və yalançı olur. Gəncliyə xas olan təkəbbür cəsurluq deyil. Hərbçi həmişə tədbirli olmalı, əməllərini soyuqqanlıqla və ehtiyatla götür-qoy etməlidir. Əgər sən sərt və lovğa olsan, hamı sənə nifrət edəcək.

**4.** Nizam-intizama itaət et.

**5.** Komandanlığa hörmət et və ona inan.

**6.** Öz vəzifə borcunu pozmaqdan çəkin-bununla şərəfli adını həmişəlik itirərsən.

**7.** Zabit sədaqətli və ədalətli olmalıdır. Bu keyfiyyətlərə malik olmayan hərbçi demək olar ki, orduda qala bilməz. Sədaqətlə öz borcunu yerinə yetirən adam ədalətlidir, verdiyi sözün üstündə durandır. Buna görə də verdiyin vədi yerinə yetirməyə əmin deyilsənsə, söz vermə.

**8.** Bütün insanlarla münasibətdə ciddi ol.

**9.** Cəsurluğun mahiyyəti ehtiyatlı olmaqdadır.

## KOMANDANLIĞA VƏ ÖZÜNƏ MÜNASİBƏT

**1.** Zabit olduğunu daim yadda saxla.

**2.** Komandanlıqla arandakı rəsmi münasibətləri qoru.

**3.** Yadda saxla ki, komandir həmişə və hər yerdə komandirdir.

**4.** Komandanlığın iş və əməllərini heç vaxt, heç kimin yanında, ən əsası isə rütbəcə aşağı olanlarla müzakirə edib, tənqid etmə.

**5.** Komandanlığın hansı formada (təklif, xahiş, məsləhət) ifadə olunmağından asılı olmayaraq, bütün xidməti göstərişləri əmrdir.

**6.** Əgər sənin rütbən böyükdürsə, ancaq özündən rütbəcə kiçik olan zabitə tabesənsə, onun bütün əmrlərini sözsüz yerinə yetirməyə borclusan.

**7.** Napoleon demişdir: "Əmr verməyi istəyən itaət etməyi bacarmalıdır".

**8.** Öz şərəfini, alayın və ordunun şərəfini qoru.

**9.** Həmişə formanı ciddi şəkildə geyinməyə və onu təmiz saxlamağa əməl et.

**10.** Öz xidməti borcuna ciddi yanaş.

**11.** Özünü sadə və ləyaqətli apar, ədabaz olma.

**12.** Hər zaman, hər yerdə hamı ilə təmkinli və nəzakətli ol.

**13.** Zəhlətökən və yaltaq olma. Xoş niyyətli və ədəbli ol.

**14.** Səmimi ləyaqət və nəzakət hisslərinin öz yerini riyakarlığa verdiyi sərhəddən aşıb keçmə.

**15.** Çalış özün haqqında az danışasan.

**16.** İfadələrində ehtiyatlı və diqqətli ol.

**17.** Əsəbi halda düşünülməmiş məktub və raportlar yazma.

**18.** Ümumiyyətlə, ürəyini heç kimə açma, peşman olarsan. Yadda saxla ki, "Dilim mənim düşmənimdir".

**19.** Vaxtını əyyaşlıqda keçirmə, özünü biabır edərsən. "Pis zabit-içməyəndir" kəlamını yadından çıxart. İndi başqa zamandır: "Pis zabit-içəndir" və belə zabiti alayda çox saxlamırlar.

**20.** Kifayət qədər tanımadığın adamla yol yoldaşı olma.

**21.** Dostluq münasibətlərində "sən" müraciətindən qaç ki, "adiləşməyəsən". İmkan vermə ki, hər kəs sənin işlərinə qarışsın, haqqında xoşagəlməz və kobud fikirlər söyləsin.

**22.** Bəzən rütbəcə səndən böyük zabit içkinin təsiri altında ona "sən" deyə müraciət etməyi təklif edir. Buna baxmayaraq, ertəsi gün diplomatik ol: ona "siz" deyə müraciət et və ya "sən" müraciətini ondan gözlə. Bir sözlə, tədbirli olmaq pis vəziyyətə düşməmək üçün vacib şərtlərdəndir.

**23.** Qalmaqallı hadisələrdən uzaq ol. Əbəs yerə şahidlik etmə: mübahisədə qəsdən bir tərəfi müdafiə etsən, özünə düşmən qazanarsan-dəyənəyin iki tərəfi var. Neytral vəziyyət hətta nəhəng dövlətlərin də digər dövlətlərlə mehriban münasibət saxlaması üçün vasitə sayılır.

**24.** Özünə düşmən qazanmış insan nə qədər ağıllı, mehriban, vicdanlı, düz danışan olmasından asılı olmayaraq, mütləq məhvə məhkumdur. Belə ki, bizim cəmiyyətdəki düşmənlərimiz həmişə fəaldırlar: dostlarımız isə adətən passiv olurlar: onlar yalnız dərdə şərik olur, təəssüflənir, ah-vay edir, amma öz şəxsi talеləri üstündə əsərək, məhv olan kəsin uğrunda mübarizə aparmırlar.

**25.** Yoldaşlarınla pul hesablaşmalarından uzaq ol. Pul həmişə münasibətə xələl gətirir.

**26.** İmkan daxilində yoldaşlarına maddi cəhətdən kömək et, özün isə bu köməkdən uzaq olmağa çalış, bu sənin mənliyini alçaldar.

**27.** Borca girmə, özünə quyu qazma. Vəsaitinin hesabına yaşa. Yalançı qürur hissini kənara qoy. Qaytarılması mümkün olmayan borc götürmə, başqa sözlə, özgəsinin cibinə girmə.

**28.** Şərəf və mənliyinin alçalmasını istəmirsənsə, başqasının hesabına kef çəkmə, çünki onun qabağına çıxmağa vəsaitin olmaya bilər. El məsəlini qulağında sırğa et, "Özgə süfrəsinin ləziz yeməyindənsə, öz süfrənin quru çörəyi yaxşıdır".

**29.** Küçə və ictimai yerlərdə arxanca deyilən gülünc, atmacalı və kinayəli sözlərə fikir vermə. Onlardan daha səviyyəli ol: çəkil, uduzmazsan, qalmaqaldan uzaq olarsan.

**30.** Hər bir qəti addımını fikirləş. Səhvi düzəltmək mümkün deyil. "Yüz ölç-bir biç".

**31.** Mübarizədən sonra güzəştə getməkdənsə - ona qədər diqqətli ol.

**32.** Çətin məqamlarda dostlar kömək etməyəcəklər: hərbi xidmətdə onlar gücsüzdürlər. Bu, nizam-intizam və rəhbərliyə tabeçiliklə əlaqədardır.

**33.** Əgər bir kəs barədə yaxşı fikir deyə bilmirsənsə, pis deməkdən də çəkin.

**34.** Məsləhətlərə qulaq as - əməl edib-etməmək sənin hüququndur.

**35.** Başqasının yaxşı məsləhətlərindən istifadə etməyi bacarmaq, özü-özünə yaxşı məsləhət görmək - dən əhəmiyyətsiz deyil.

**36.** Xidmətdən kənarda başqası ilə hərbi mövzuda söhbətdən uzaq ol.

**37.** Özünə yoldaş seçərkən diqqətli ol. Onların yalnız savadını deyil, həm də cəmiyyətdəki mövqeyini nəzərə al. "Dostunu göstər, sənin kim olduğunu deyim".

**38.** Hərbi məktəbi bitirdikdən sonra məşğələləri davam etdir. Sənin gücün hərb sənətini yaxşı bilməkdədir. Döyüşdə öyrənməyə vaxt qalmır, öyrəndiklərini tətbiq etmək gərəkdir. Nəzərdən qaçırma ki, silahın bütün növlərini bilmək gərəkdir.

**39.** Raportlar yığcam, komandirin ünvanına tərifə yol vermədən, mahiyyət nəzərə alınaraq yazılır.

**40.** Rütbəsindən asılı olmayaraq hər bir zabitin imzası aydın, səlist yazılmalıdır.

**41.** Hərbi məmurlar da zabitlərə aid olan qaydalara tabe olurlar.

## QƏDİM HƏQİQƏTLƏR

**1.** İradə möhkəmliyi və qorxmazlıq hərbçi üçün mühüm olan iki başlıca keyfiyyətdir.

**2.** Zabit bir döyüşçü kimi özünün malik olduğu mənəvi keyfiyyətlərlə başqalarından üstün olmalıdır, çünki kütlə üzərində hakim kəsilmək üçün bu keyfiyyət hava və su kimi lazımdır.

**3.** Zabitin gücü hay-küydə yox, təmkinli olmasındadır.

**4.** Hərbi şərəf əzmkarlığı və cəsurluğu artırır.

**5.** Hərbi salamlaşma zabit üçün müqəddəsdir.

**6.** Zabit rütbəcə ondan aşağıda duran yoldaşın hüquqlarına hörmət etməlidir.

**7.** Özündən aşağı rütbədə olanlara hörmət etməyən hərbi rəhbər onların heysiyyatına toxunur.

**8.** Yaşından asılı olmayaraq əhalinin bütün təbəqələri ordu sıralarından keçir, bununla da zabit korpusunun təsiri bütün əhali arasında yayılır.

**9.** Hərbi xidmətdən gedən əsgər vaxtilə qulluq etdiyi orduya, hərbi mühitə nifrət ifadə edərsə, bu ölkə üçün fəlakətdir.

**10.** Tam inanmadığın, yaxud ən azı şübhə etdiyin şeyləri təkzibolunmaz həqiqət kimi yazma. Belə hərəkət etmək cinayətdir.

**11.** Hərbi xidmətin hansısa normal tərəfinin inkişaf etməyindənsə, əxlaqi cəhətdən kamilləşməsi daha zəruridir.

**12.** Ordunun saxlanması baha başa gəlir. Ancaq orduya çəkilən xərclər dövlətin özünün təhlükəsizliyi üçün zəmanət yaradır.

**13.** Ordu Vətəni tufanlardan qoruyan palıd ağacıdır.

## HƏYAT QAYDALARI

**1.** Alaydakı qadınlarla münasibətdə son dərəcə diqqətli ol. Bundan sonra hələ on illərlə xidmət edəcəyin alay ailəsinin adına ləkə gətirmə. Bu cür romanların sonu faciə ilə bitir.

**2.** Qadınlar haqqında heç vaxt fikir söyləmə. Yadda saxla ki, qadınlar bütün zamanlarda nifaqın səbəbkarları olublar və onlar nəinki ayrı-ayrı şəxsləri, həm də bütöv imperiyaları bədbəxtliyə sürükləyiblər.

**3.** Kimliyindən asılı olmayaraq sənə etibar edən qadının şərəfini göz bəbəyi kimi qoru. Ləyaqətli adam, xüsusən söhbət zabitdən gedərsə, hətta özünün sınanmış dostları arasında belə, bu kimi şeylərdən danışmazlar-qadını ən çox qorxudan dedi-qodudur.

**4.** Həyatda elə vəziyyətlər olur ki, ürəyini susdurmalı və yalnız ağlın hökmü ilə yaşamalı olursan.

**5.** Zabitin bütün naqis hərəkətləri alayın şərəf məhkəməsi tərəfindən mühakimə olunur.

**7.** Qulluğun və işin barədə cəmiyyət içində danışmaq lazım deyil.

**8.** Hətta xidməti xarakter daşımayan sirləri belə, qorumağa çalış. Unutma ki, sənin birinci adama belə, verdiyin sirr daha sirr deyil.

**9.** Alayın və həyatın ənənələrindən irəli gələn cəhətlərin üzərindən adlama.

**10.** Təkcə mühakimə yürüdüb fikir söyləmək azdır, vaxtında susmağı və dinləməyi də bacar.

**11.** Hərbi xidmətdə özünə vurğunluq hissini büruzə vermə, əks halda həmişə bundan əzab çəkəcəksən.

**12.** Həmişə sərvaxt ol və arxayınlaşma.

**13.** Hərbi xidmətçilərin ədəbi fəaliyyətlə məşğul olmalarına icazə verilsə də, onların yazdıqları məqalələrin altında rütbə və vəzifələrini göstərən imza atmağa ixtiyarı yoxdur.

**14.** Hərbi xidmətçilər çap edilən yazıların üstündə yalnız ümumi cinayət məsuliyyətinə deyil, həm də zabitlərin ictimai məhkəməsinə, yaxud intizam məsuliyyətinə cəlb oluna bilərlər, bu isə onların hərbi xidmətdən qovulmaları ilə nəticələnə bilər.

**15.** Başqa adamların yalanını ifşa etmək həm özünə, həm də onlara ziyan verməkdir.

**16.** Çalış ki, mübahisə əsnasında sənin sözlərin yumşaq, dəlillərin möhkəm olsun. Opponentini alçaltmağa yox, inandırmağa çalış.

**17.** Kütləvi şənliklərdə zabitlərin rəqs etməyi məsləhət deyil.

**18.** İctimai yerə çıxanda diqqətli ol: əgər orada hamı bir nəfər kimi şinelsiz və papaqsızdırsa, sənin də onlar kimi olmağın vacibdir.

**19.** Siqaret çəkmək istəyəndə ev sahibindən, yaxud yaşca böyük olan şəxsdən (baxır nə vaxt, harada) icazə istə, ən yaxşısı isə sənə təklif edilməyini gözlə.

**20.** Hər kəsin öz qüsurları var: heç kəs başqasının köməyi olmadan keçinə bilməz, buna görə də biz bir birimizə məsləhətlər verməliyik.

**21.** Söhbət edəndə əl hərəkətindən və səsin tonunu qaldırmaqdan çəkin.

**22.** Sən əgər küsülü olduğun bir şəxsin məclisinə gəlmisənsə, qəbul edildiyi kimi hamıyla, o cümlədən onunla da salamlaşıb əl tutmalısan, əgər bunu etmək zorunda deyilsənsə, onda məclisdə iştirak edənlərə və ev sahibinə hörmətsizlik etmiş olursan. Əl vermək artıq-əskik söhbətlərə bəhanə yaratmaq və sənin boynuna əlavə minnət qoymur.

**23.** Ümumi qəbul edilmiş qaydaya görə, zabit küçədə rastlaşdığı, rütbəsindən asılı olmayaraq, bütün zabitlərlə salamlaşmalı, yaxud təzim etməlidir.

**24.** Qərargah zabitləri (polkovnik-leytenant və polkovniklər), generallar və ober zabitlər rəsmi qaydada hərbi salam verməlidirlər. Əgər onlar otaqdan çıxanda zabit oturubsa, mütləq ayağa qalxmalı və təzim etməlidir.

**25.** Sol əl ilə (yaralıları çıxmaq şərtilə), yaxud damağında siqarətlə, başını tərpətməklə, sol əlini cibində saxlamaqla hərbi salam vermək və almaq ləyaqətsizlikdir. Qadın qoluna girən zabitlər nizamnaməyə görə hərbi salam verməkdən azad olunur.

**26.** Papaq nizamnaməyə uyğun şəkildə qoyulmalı, şinel isə son düymələrinə qədər bağlanmalıdır.

**27.** İctimai yerlərdə zabit də başqaları kimi hamı üçün qəbul edilmiş prinsiplərə əməl etməlidir.

**28.** Ümumiyyətlə götürdükdə, zabitin davranışı özünün dəqiqliyi ilə diqqəti cəlb etməli və ətrafdakı adamlarda rəğbət oyatmalıdır.

## HƏRBİ XİDMƏTDƏ

**1.** Etdiyin səhvləri çalış ki, təkrarlamayasan. Öyrənmək üçün ən yaxşı vasitə-öz səhvini anlamaqdır. Bu, özünütərbiyənin ən vacib şərtidir. Yalnız əlini ağdan-qaraya vurmayanlar səhv etmirlər.

**2.** Əsgərlərin qüsuruna hörmətlə yanaş, sadə insanlarda o bizdəkindən heç də az inkişaf etməyib, əksinə tabe olmaq məcburiyyəti onları daha da həssaslaşdırır.

**3.** Əsgərlər dilsiz qoyun deyillər, onlar ölkənin müxtəlif yerlərindən gəlmiş amansız hakimlərdir. Hərbi xidmətdən sonra onlar öz yerlərinə xidmət müddətində qazandıqları təşəkkür və qəzəb, hörmət və nifrət, məhəbbət və ədavət kimi keyfiyyətlərlə qayıdırlar. Əsgərlərin susmağı inkişafdan qalmaq əlaməti deyil, dəmir nizam-intizamın nəticəsidir. Onlar insaniyyəti və həqiqəti dəyərləndirməyi bacarırlar.

**4.** Əsgərləri döymək qanunla qadağandır.

**5.** Əsgərin sırada duruşunu ona toxunmadan düzəltmək lazımdır. Sözlə düzəliş etdikdə əsgər bunu özü edəcək, amma əllə müdaxilə etdikdə o, səhvin nədən ibarət olduğunu anlamayacaq, çünki əllə edilən hərəkət onun ağlına batmır.

**6.** At da istəyir ki, onu sözlə başa salsınlar, insana isə dilsiz bir varlıq kimi yanaşmaq yolverilməzdir.

**7.** Məşğələlərdə həmişə qıvraq, hər an təmkinli və sakit, tələbkar və ədalətli ol.

**8.** Əsgərlə zarafat etmə, yoxsa hörmətdən düşərsən.

**9.** Hörmət öz işini və hərbi xidmət qaydalarını yaxşı bilməklə qazanılır.

**10.** Əsas odur ki, tabeçiliyində olanlar səndən qorxmaq əvəzinə sənə hörmət etsinlər. Qorxu olan yerdə məhəbbət yoxdur. Onun yerini bədxahlıq və nifrət tutur.

**11.** Həmişə haqqın tərəfində ol, xüsusən də əsgərlərlə münasibətlərində. Əsgərə verdiyin sözə əməl et, əks halda onu yalana öyrədərsən.

**12.** Düzgünlük hər sahədə, xüsusi ilə tərbiyə işində ən vacib şərtdir.

**13.** Sərxoş adamla işin olmasın. Əgər əsgər sərxoşdursa, özün təhqir və etiraza məruz qalmamaq üçün heç bir təhqiredici tədbirə əl atma. Sərxoş adamı aparmaq üçün onunla eyni rütbəli şəxsə, belə şəxs olmadıqda isə polisə müraciət et. Bununla sən sərxoş adamı cinayətdən, zabiti isə təhqirdən uzaqlaşdırmış olarsan.

**14.** Sərxoş adamı həbs edərkən onunla hər hansı şəxsi münasibəti ayırd etmək qadağandır.

**15.** Çətin anlarda deyim tərzinin böyük əhəmiyyəti var, belə ki, əmrin mənasında nə etmək deyil, necə etmək anlamı durur.

**16.** Tərəddüd və yaxud fəaliyyətsizlikdənsə, səhv qərar qəbul etmək yaxşıdır. Əldən buraxılan məqam geri qayıtmaz.

**17.** Qanunlara hörmət et və onlara hörmət etməyi şəxsi nümunənlə başqalarına öyrət.

**18.** Rütbəcə özündən böyüyə etiraz etmə və onunla söz güləşdirmə.

**19.** Xidmətə görə sənə tapşırılmış dövlət pulu və əmlakı ilə ehtiyatlı ol. Pula ehtiyacın nə qədər böyük olsa da, heç vaxt həmin pulları mənimsəmə. Hər hansı haqq-hesab çatışmazlığı israfçılıqdır. Bunun məsuliyyəti çox böyükdür.

## MƏŞĞƏLƏLƏR

**1.** Məşğələlərin cansıxıcı keçməsi əsgəri inkişaf etdirmir, əksinə onun ruhunu öldürür.

**2.** Əsgər evə qayıdarkən xidmət dövründə ona rəhbərlik etmiş rəislər barədə xatirələrini də özü ilə bərabər aparır.

**3.** Zabit hər şeydən əvvəl kiminlə iş gördüyünü bilməlidir. Kazarma və səngərlərdə ölkənin bütün millətlərinin nümayəndələri cəmləşirlər. Onların xarakterləri, baxışları, mənəviyyatları müxtəlifdir. Əsgərlərin hərbi xidmətinin ilk anlarında bu yaşlı uşaqları ruhlandır. Əsgərliyə yeni gələnlərə ürəkdən bir neçə kəlmə isti söz de. İlk günlərdə ona xidmət barədə heç bir şey demə. Onu qorxutma. Bunları ağılnan etsən, onu özünə ram edəcəksən və o, sənin əsgərin olacaq.

**4.** Vay o gündən ki, yeni əsgər öz komandirinə etibar etməsin və onun şəxsində yalnız sərt və formal, yalnız cəza verməyi bacaran bir məmuru görsün.

**5.** Zabit etibarı müxtəlif yollarla qazanır. Onlardan biri dərin biliyə malik olmaqdır.

**6.** Bilik gücdür. Bilik kazarmaya gələn yeni əsgərin yanlış siyasi baxışlarını alt-üst edən ən güclü vasitədir.

**7.** Əsgər mətbəxini yaddan çıxarma, çünki "Əsgərin ürəyinə yol onun mədəsindən keçir" .

**8.** Ziyankar sentimentalizmdən uzaqlaş.

**9.** Əsgər onunla söhbət etməyi sevir.

**10.** Zabit əsgərin böyük qardaşıdır.

**11.** Zabit əsgərin böyük qardaşıdır, ancaq əzizxələf mənasında yox, əks hallarda nizam-intizam qaydaları pozulur.

**12.** Hərbi intizam deyəndə sən sərt, lakin hər hansı qəddarlıqdan uzaq olan insani hərəkətləri nəzərdə tutmalısan!

**13.** Rəis hörmətini itiribsə, onun hərbi təlim sahəsində bütün əməyi məhv olur.

**14.** Hərbi tərbiyə işinin əsas vasitəsi aşağı rütbəlilərə mütəmadi münasibət, müntəzəm aparılan söhbətlərdir.

**15.** İşi elə təşkil et ki, bu cür söhbətlər əsgərlər üçün xoş və mənalı istirahət olsun.

**16.** Əsgərlərlə söhbətlərdən əvvəl mövzunun konspekt şəklində planını tərtib et.

**17.** Belə mühazirələrə həddindən artıq aludə olma. Təcrübə göstərir ki, normal vaxt 1/2-3/4 saatdır. Bu müddət çox olduqda adamlar yorulur, mürgüləyirlər.

**18.** Bəzən qiraəti saxlayıb söhbətə və zarafata keçmək məsləhətdir, çünki gülüş zamanı beyin dincəlir və daha yüksək iş qabiliyyətini bərpa edir.

**20.** Nümunələrdən və əyani şəkillərdən istifadə et.

**21.** Yaxşı nümunə həmişə yaxşı qaydadan daha səmərəli nəticə verir.

4_Layout 1 13.08.2014 17:42 Page 1



## BİZİM ŞÜAR:

## "MÖHKƏM HƏRBİ İNTİZAM, TƏLİMDƏ VƏ XİDMƏTDƏ YÜKSƏK NAİLİYYƏTLƏR UĞRUNDA!"

## UNUTMA!

**1813-1828-ci illərə** qədər Azərbaycanın ərazisi təxminən 410 min kv.km idi. İki dövlət arasında bağlanmış müqavilə əsasında bu ərazilərdən 280 min kv. km İranın, 130 min kv.km isə Rusiyanın əsarəti altına düşdü. **1918-ci ildə** Çar Rusiyası dağıldıqdan sonra Azərbaycan torpaqlarından 9 min kv.km-lik əraziyə malik İrəvan xanlığı Ermənistana, 7 min kv.km-lik ərazidə qərar tutan Dərbənd xanlığı isə bolşevik Rusiyasına verildi.

**1918-1920-ci illərdə** cəmi 23 ay yaşayan Azərbaycan Demokratik Respublikasının ərazisi 114 min kv.km olub.

Bolşevik Rusiyasının qoşunlarının **1920-ci ilin 28 aprelində** ADR-i işğal etməsindən sonra ərazilərimizin bölünməsi bu şəkildə davam etdirildi:

Zəngəzur, Dərələyaz və Dilcan (cəmi 10,9 min kv.km ərazi) Ermənistana, Borçalı mahalı (cəmi 9,5 min kv.km ərazi) Gürcüstana verildi.

Azərbaycan torpaqlarının qonşularımıza bağışlanması SSRİ dövründə də Moskvanın diqtəsi ilə davam etmişdi. Bu illərdə Göyçə mahalı və Naxçıvandan 9 yaşayış məntəqəsi, Qazaxdan 50 kv.km-lik ərazi, Cəbrayıl qəzasından Nüvədi, Ernəzir və Tuğud kəndləri, 40 kv.km-lik meşə sahəsi, Tovuz rayonunun 7,6 kv.km-lik ərazisi ermənilərə verilmişdir.

**1988-1993-cü illərdə** ərazisi 86,6 min kv.km olan Azərbaycanın aşağıdakı əraziləri işğal altına düşmüşdür: Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) cəmi 4400 kv.km idi.

| | | |
|---|---|---|
| **Şuşa şəhəri** | - (289 kv.km) | - 8.05.1992 |
| **Laçın rayonu** | - (1835 kv.km) | - 17.05.1992 |
| **Kəlbəcər rayonu** | - (1936 kv.km) | - 2.04.1993 |
| **Ağdam rayonu** | - (1094 kv.km) | - 23.07.1993 |
| **Cəbrayıl rayonu** | - (1050 kv.km) | - 18.08.1993 |
| **Füzuli rayonu** | - (1386 kv.km) | - 23.08.1993 |
| **Qubadlı rayonu** | - (802 kv.km) | - 31.08.1993 |
| **Zəngilan rayonu** | - (707 kv.km) | - 29.10.1993 |

## VƏTƏNPƏRVƏR DEYİMLƏR...

Əsl yüksək əxlaqlı, xeyirxah adam yalnız o adam hesab edilə bilər ki, o, özünün bütün hərəkət və davranışlarını əsl vətənpərvərliklə uyğunlaşdırsın.

**M.F.Axundzadə**

Vətənin qədrini o kimsə bilər ki, vətən ilə onun ruhən rabitəsi olsun, vətən ilə bir yerdə ağlasın, bir yerdə gülsün.

**N.Nərimanov**

Elə cinayət var ki, bağışlanmır, bu, vətənə xəyanətdir.

**Ə.H.Bəhmənyar**

Öz Vətənini sevmək – bəşəriyyətin ideallarının həyata keçirilməsini ürəkdən arzu etmək və gücün çatana qədər buna kömək etmək deməkdir.

**V.Q.Belinski**

İnsanın ləyaqəti onun vətənpərvərliyinin gücü ilə ölçülür.

**N.Q.Çernişevski**

Namuslu insan olmaq istəyirsənsə, ömrünün mənasını Vətənə xidmətdə gör.

**D.İ.Fonvizin**

Mən ya Vətənimin rifahı üçün yaşamalı, yaxud da onunla birlikdə məhv olmalıyam.

**M.T.Siseron**

Öz Vətənindən üz döndərən adam öz vicdanından da üz döndərmiş olur.

**A.Qalan**

Öz Vətənini, öz azadlıq və istiqlaliyyətini sevən bir xalqın ruhunu məhv edəcək bir qüvvə yoxdur.

**M.İ.Kalinin**

Vətən hissi izahedilməzdir, biz onu analıq hissinə bağlayırıq.

**M.M.Prişvin**

## ...SON NƏFƏSİMƏDƏK VƏTƏNİMƏ SADİQ OLACAĞAM!!!

# GÜCLÜ ƏSGƏR OLMAQ HƏDƏFİ

**Döyüşdə zəfərin qazanılmasının əsas ağırlığı əsgərlərin çiyinlərinə düşür.** Hər bir əsgər bir siperdir. Bu siperlərin cəmi bir ordu gücü yaradır. Güclü ordu güclü əsgərdən başlayır. Əgər güclü əsgər olmaq hədəfi yoxdursa, şəxsi heyətlə aparılan təlim-tərbiyə işi öz əsas oriyentirini itirmiş olar.

Ümumiyyətlə, hərbi xidmət, xidməti-döyüş fəaliyyəti güc faktoruna söykənir. Ona görə də güclü olmaq, güc daşıyıcısı kimi formalaşmaq, gücdən düzgün, yetərli qədər və labüd şəraitdə istifadə etmək mühüm amillərdir.

**Güclü əsgər anlayışı fiziki məharət, döyüşçü peşəkarlığı, iradəli xarakter, əqidə dönməzliyi kimi bünövrələrin vəhdətini təcəssüm etdirir.** Hərb tarixi göstərir ki, güclü əsgər tələbatı ödənmədikdə, bu ehtiyac təmin edilmədikdə istənilən bir dövlət və xalq üçün ölüm-qalım dilemması ilə üz-üzə qalmaq məcburiyyəti yaşana bilər.

Ölkəmizin müharibə təcrübəsi də bir çox ibrət dərslərini öyrənməyi diqtə edir. Bəli, döyüş meydanlarında güclü, cəsur və fədakar əsgərlərimiz az olmayıb. Onların hünəri, mərdlik örnəyi bugünkü əsgərlərə dolğun çatdırılmalıdır. Bu oğullar düşmənin gözünü qorxudub, iradəsini ram edib, onu vahiməyə salıb, geri çəkilməsinə müvəffəq olub və nəhayət, məhv edilməsində şücaət nümunələri göstərib. Ancaq etiraf etməliyik ki, döyüşmək üçün gücü yetməyən, iradəsi zəif, qorxaqlıq göstərən əsgərlərimiz də olub.

Müharibənin sərt üzü var və kimin kim olduğunu, istər-istəməz, ortaya çıxarır. Əslində, elə güclü əsgər olmaq hədəfini həyati zərurətə çevirən faktor müharibə sınağıdır. Güclü olmayan əsgər müharibə sınağından uğurla keçə bilməz.

**Hər bir əsgər "mən son nəfəsimədək vətənimə sadiq olacağam" amalı ilə xidmət etməlidir.** Əsgər bilməlidir ki, dövləti, xalqı onun dayağıdır və o da mənsub olduğu dövlətin, xalqın şərəfini uca tutmalıdır.

Qarabağ müharibəsində öz komandirini düşmən gülləsindən qorumaq üçün sinəsini qabağa verən əsgərlərimiz olub. Onların bu misilsiz igidliyi onu göstərir ki, vətən əsgərinin vətənpərvərliyi, hərbi andına sədaqəti, onu tərbiyə etmiş və ona təlim vermiş komandirə ehtiramı ağır sınaq anında həlledici rol oynayıb.

**Göründüyü kimi, güclü əsgər yetişdirmək hədəfini reallığa çevirən vətənpərvər əqidəli komandirlərdir.** Güclü əsgər hazırlaya bilən komandir döyüş meydanında məğlubiyyət acısını yaşamayacaq.

**Əsgərin güclü olmasına ruh verən əsas amillərdən biri də onun ailəsidir.** Əsgər ailəsi sarıdan arxayın olmalıdır, valideynlərinin, bacı-qardaşlarının mənəvi dəstəyini hiss etməlidir. Psixoloji qanunauyğunluqlara görə, hətta sevdiyi qızın vəfası, onun kişilik məktəbi keçməsinə rəğbət göstərməsi, həsrətlə yolunu gözləməsini ifadə etməsi də əsgərə mənəvi güc verir.

**Güclü əsgər olmaq hədəfinə aparan yollardan biri də əsgəri qardaşlıqdan keçir.** Əsgəri qardaşlıq hərbi xidmət şəraitində formalaşan və möhkəmlənən mənəvi bağlılıqdır, öz silahdaşına güvənc yaradan döyüşçü keyfiyyətidir. Əsgər anlamalıdır ki, döyüş vərdiş və üsullarına mükəmməl yiyələnmək üçün fərdi əzmkarlığı yanaşı, onun əsgər yoldaşlarının təlim dəstəyi, birgə çalışqanlığı, taktiki fəndləri birlikdə mənimsəmə bacarığı da xüsusi rol oynayır. Səninlə eyni hərbi forma geyinən, təlimdə birgə tər tökən, sırada hərbi marş oxuyub addımlayan, xidməti tapşırıqların yerinə yetirilməsində qarşılıqlı fəaliyyət göstərən əsgər yoldaşına dəyər vermək lazımdır.

**Əsgəri güclü edən həm də onun silahıdır, istifadə etdiyi digər döyüş vasitələridir.** Ona görə də əsgərin silahın, texnikanın sirlərinə mükəmməl yiyələnməsi ilə yanaşı, "silah yalnız düşmənə qarşı tuşlana bilər" əqidəsinin aşılanması da çox vacibdir. Əldə silahın olması cəsurluq üçün kifayət etmir, düşmənin də əlində silah var. Önəmli olan cəsarət, çeviklik, gücü toparlamaq, hədəfə inadla can atmaq, dözümlü olmaq, təlimdə məşq edilənləri özünü itirmədən tətbiq etmək, döyüş ruhunu qoruyub saxlamaqdır.

Son günlər düşmənlə təmas xəttində ön mövqelərə basqını dəf edərkən igid əsgərlərimiz şəhid oldu.Yaranmış vəziyyət bir daha göstərdi ki, işğal olunmuş torpaqların azad olunması Vətən əsgərinin gücünə və şücaətinə bağlıdır.

Hansı qoşun növündə hərbi xidmət keçməsindən asılı olmayaraq hər bir əsgər öz döyüş hazırlığını qoruyub saxlamalı və təkmilləşdirməlidir. **Güclü əsgərin əsas cəhəti müdafiədə möhkəm dayanması və hücumda məğlubedilməz olmasıdır.** O, öz gücünə inanmalı, amalındakı ədalətə güvənməli, xalqının xeyir-duasından ruhlanmalıdır.

Hərbi strateqlərdən biri deyib ki, güclü olmayan əsgər döyüşçü deyil, o, özü bir hədəfdir. Bu həqiqəti heç vaxt unutmamalıyıq. Biz bu gün daha böyük inam hissi ilə deyə bilərik ki, güclüyük, çünki güclü əsgərlərimiz var.

**Yalçın Abbasov,**
**Daxili Qoşunların Veteranlar Şurasının katibi**

***Daxili Qoşunların 2013-2014-cü tədris ilində əsas tədbirlər planına əsasən 15-19 iyul tarixlərində Daxili Qoşunların Baş İdarəsinin kompleks yoxlama qrupu tərəfindən 17072 saylı hərbi hissədə yoxlama keçirilmişdir. Hərbi hissənin bölmə və dəstələrində aparılmış təlillər və keçirilmiş yoxlamalar göstərmişdir ki, hərbi nizam-intizamın möhkəmləndirilməsində, həmçinin xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində hərbi hissə daha yüksək nəticələr əldə etmişdir.***

***Yoxlama zamanı eyni zamanda hərbi qulluqçularla tərbiyə işinin vaxtlı-vaxtında həyat keçirildiyi də diqqət çəkmişdir. Bu səbəbdən Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunlar Komandanının müvafiq əmrinə əsasən hərbi hissənin bir sıra vəzifəli şəxsləri mükafatlandırılmışlar. Xidmətdə yüksək nailiyyətlər əldə edən hərbi qulluqçularımız haqqında bir qədər ətraflı məlumat vermək istərdik.***

# YÜKSƏK NƏTİCƏLƏR ƏLDƏ EDİLMİŞDİR



**Mayor Novruzov Vüqar Adil oğlu** 1996-cı ildə C.Naxçıvanski adına hərbi liseyə qəbul olunub. 1999-2003-cü illərdə isə Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb. Təhsilini bitirdikdən sonra ilk zabit - "leytenant" hərbi rütbəsinə yiyələnən Vüqar 2003-cü ildən 2011-ci ilə kimi Daxili Qoşunların 17072 saylı hərbi hissəsində müxtəlif vəzifələrdə xidmət edib. Şəxsi nizam-intizamı və bacarığı ilə daim diqqət mərkəzində olan və hərbçi yoldaşlarından yaxşı mənada fərqlənən mayor V.Novruzov döyüş hazırlığının daima yüksəldilməsi üçün bütün lazımi tədbirləri həyata keçirir. O, 2011-ci ilin aprel ayından hərbi hissənin qərargah rəisinin döyüş təlimi üzrə müavini vəzifəsində xidmət edir. Mayor V.Novruzov qarşıya qoyulmuş tapşırıqların keyfiyyətlə yerinə yetirilməsi, hərbi hissədə daxili qayda-qanunun qorunub-saxlanılması üçün hər zaman bütün qüvvəsi ilə fəaliyyət göstərir. Qüsursuz xidmətinə, döyüş təlimində, eləcə də xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində daha yüksək nəticələr əldə etdiyinə və nümunəvi hərbi intizam nümayiş etdirdiyinə görə dəfələrlə yuxarı komandanlıq tərəfindən mükafatlandırılıb.



**Mayor Kərimov Təbriz Vidadi oğlu** 2003-cü ildən Daxili Qoşunların sıralarındadır. Hərbi xidmətinə 12318 saylı hərbi hissədə başlayıb, 1999-2003-cü illərdə Azərbaycan Ali Hərbi Məktəbində təhsilini davam etdirib. 2007-2008-ci illərdə isə Çin Xalq Respublikasında tabor komandirlərinin hazırlığı üzrə kursda iştirak edib və yüksək nailiyyətlər qazanıb. Əvvəllər 16075 saylı hərbi hissədə xidmət edən mayor T.Kərimov 2012-ci ildən hərbi hissədə dəstə komandiri vəzifəsində xidmətini davam etdirir. Qüsursuz xidməti, eləcə də döyüş təlimində böyük uğurlar qazanması hərbi hissə və yuxarı komandanlıq tərəfindən hər zaman qiymətləndirilib. Yüksək peşə hazırlığına malik olan komandir həm özünə, həm də rəhbərlik etdiyi şəxsi heyətə qarşı olduqca tələbkardır. O, taborda silahların, döyüş sursatlarının, əmlakların qorunub-saxlanılmasını həmişə diqqətdə saxlayır. Kollektiv arasında böyük nüfuza malikdir. Daxili Qoşunların, eləcə hərbi hissənin ictimai həyatında yaxından iştirak edir. Bölmələrin idarə olunmasını, təşkilini təmin edir və mövcud nöqsanları aradan qaldırılması üçün daim çalışır.



**Mayor Əhmədov İftixar Əli oğlu** 2000-2001-ci illərdə müddətli həqiqi hərbi xidmət keçib. 2001-ci ildən bu günə kimi bu hərbi hissədə tağım komandiri, bölük komandiri kimi məsul vəzifələrdə çalışıb. Xidmət etdiyi müddət ərzində özünü hər zaman müsbət cəhətdən göstərib. Kifayət qədər hazırlıqlı və bacarıqlı olan mayor İ.Əhmədov vəzifə borclarına olduqca məsuliyyətlə yanaşır və tabeliyində olan bütün şəxsi heyətə də məhz bunları məsləhət görür. O, üzərində daima çalışır və hərbi biliklərini artırır. Hazırda Avtomobil və zirehli texnika xidmətinin rəisi vəzifəsində xidmət edən mayor İ.Əhmədov nəqliyyat vasitələrinin istismarı zamanı yol-qəza hadisələrinin qarşısının alınması və sürücülərin peşə hazırlığının daha da yüksəldilməsi üçün lazımi tədbirlər həyata keçirir.

Nümunəvi xidməti, hərbi nizam-intizamı ilə fərqlənən hərbi qulluqçularımızdan biri də hərbi hissənin bölmə komandiri **kapitan Əsədov Ziya Ramiz oğludur.** O, 1997-ci ildən həqiqi hərbi xidmətdədir. 2002-ci ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbini bitirib və "leytenant" hərbi rütbəsi alıb. Xidmət etdiyi 20 ilə yaxın bir müddətdə yalnız ciddi, tələbkar, nizam-intizamlı hərbçi kimi xarakterizə olunub. Kollektiv arasında xüsusi hörmətə malik olan kapitan Z.Əsədov öz bilik və bacarığını müntəzəm olaraq daha da artırmağa səy göstərir. Bölüyün şəxsi heyəti ilə birlikdə keçirilən məşğələlərdə yaxından iştirak edir.



Həmçinin şəxsi heyətin xidmətə hazırlanmasında onun əməyi danılmazdır. Nümunəvi və qüsursuz xidmətinə görə komandanlıq tərəfindən dəfələrlə mükafatlandırılıb.



**Baş leytenant Abdullayev Elvin Tofiq oğlu** 2005-2006-cı illərdə Daxili Qoşunların 25032 saylı hərbi hissəsində müddətli, 2007-ci ildən 2011-ci ilədək isə 16077 və 25031 saylı hərbi hissələrdə müddətdən artıq həqiqi hərbi xidmət keçib. Hazırda bölük komandiri vəzifəsində xidmət edən baş leytenant E.Abdullayev işgüzarlığı ilə bərabər, şəxsi keyfiyyətləri ilə də kollektivin dərin nüfuzunu qazanıb. Rəhbərlik etdiyi bölükdə nizam-intizamın möhkəmləndirilməsində, döyüş hazırlığının yüksəldilməsində əlindən gələni əsirgəmir, qarşıya qoyulmuş tapşırıqları vaxtında və bacarıqla yerinə yetirir. Hərbi hissənin ictimai həyatında yaxından və fəal iştirak edir.

Nümunəvi hərbi intizam nümayiş etdirdiyi üçün Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunlar Komandanının müvafiq əmrinə əsasən müxtəlif mükafatlara layiq görülüb.

**gizir X.Tağıyeva**

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Rəşad Sarıyev

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 560-12-21

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000